Təqvim yada salır

# Öz portretini çəkən ilk azərbaycanlı rəssam

**Bu gün Azərbaycan rəngkarlıq sənətində ilk akademik rəsm üslubunda işləmiş sənətkar Bəhruz Kəngərlinin vəfatının 101-ci ildönümüdür. Bu barədə qəzetimizə açıqlamasında Azərbaycan Rəssamlar İttifaqı Rəyasət Heyətinin üzvü, Əməkdar incəsənət xadimi, sənətşünas Ziyadxan Əliyev bildirdi:**



– Bəhruz Kəngərli 1892-ci il yanvarın 22-də Azərbaycanın qədim mədəniyyət mərkəzlərindən olan Naxçıvan şəhərində dünyaya göz açıb. Rəssam 1922-ci il fevralın 7-də otuz yaşında vəfat edib. Atası Şirəli bəy Kəngərli dövrünün mütərəqqi elm adamlarından olub. Bəhruz Kəngərli anasını çox erkən itirdiyindən onun tərbiyəsi ilə analığı məşğul olub. O, kiçik yaşlarında yatalaq xəstəliyinə tutulub. Xəstəlikdən yaxa qurtarsa da, eşitmə qabiliyyətini itirib. Bu səbəbdən də rus-tatar məktəbindəki təhsili yarımçıq qalıb. Atasının evə gətirdiyi şəkilli kitab və jurnallardan, xüsusən də “Molla Nəsrəddin” jurnalından faydalanan Bəhruz kiçik yaşlarından rəsm çəkməyə maraq göstərib, şəkillərin surətini çıxarmaqla məşğul olub, rus dilini öyrənərək özünün bilik səviyyəsini artırıb. Getdikcə, o, bütün vaxtını rəsm çəkməyə sərf edib.

Tezliklə onun rəssamlıq qabiliyyəti ətrafındakıların diqqətini cəlb edib və ailənin yaxın qohumlarının, həmçinin tanınmış ziyalı Eynəli bəy Sultanovun məsləhəti ilə atası onu Tiflisdə yerləşən “Qafqaz İncəsənəti Təşviq Cəmiyyəti” nəzdindəki Boyakarlıq və Heykəltəraşlıq Məktəbinə qoyub. O dövrdə Tiflisdə yaşayan Cəlil Məmmədquluzadənin himayəsi ilə Bəhruz Kəngərli təhsilini uğurla başa vuraraq Naxçıvana qayıdıb. Həmin vaxt Mirzə Cəlilin “Molla Nəsrəddin” jurnalı ilə əməkdaşlıq edən rəssam Oskar Şmerlinq Bəhruza peşəkar rəssamlıq prinsiplərini, Avropa mədəniyyətinin nailiyyətlərini aşılayıb.

Bəhruz Kəngərlinin ilk fərdi sərgisi tələbəlik illərində –1914-cü ildə Naxçıvanda açılıb. İkinci sərgisi 1919-cu ildə baş tutub. Rəssamın sağlığında keçirilən sonuncu sərgisi artıq Naxçıvanda sovet hakimiyyətinin ilk illərinə təsadüf edib.

Sənətşünas daha sonra dedi: – Ümumiyyətlə, onun yaradıcılığı mövzu və janr cəhətdən geniş və əhatəli olub. Rəsmlərini sulu boya, yağlı boya, tuş, qələm və kömürlə işləyib. Bir çox əsərlərini bir neçə rakursdan müxtəlif rəsm texnikasında icra edib. Bəhruz Kəngərlinin əsərlərində xətlər və cizgilər deyil, sərbəst və cəsarətlə birbaşa vurulmuş rəng yaxıları həlledici rol oynayır. Maraqlıdır ki, Bəhruz Kəngərliyə qədər Azərbaycan rəssamlığında öz portretini çəkən olmayıb. Portret janrının avtoportret növünü Azərbaycan rəsm sənətinə o gətirib.

Bəhruz Kəngərli portretlərini çəkdiyi insanların mənəvi duyğularını, hisslərini ifadə etməyə çalışıb. “Şirin xanımın portreti”, “Nazlı xanım Tahirova (Nəcəfova)”, “Əsəd ağa Kəngərlinin portreti”, “Rus dili müəllimi Mirzə Məhəmməd Zamanbəyovun portreti”, “Qadın portreti”,



“Qoca kişi” , “Mirzə Heydər Nəsirbəyovun portreti” və onlarla digər dəyərli əsarləri ilə rəssam milli incəsənətimizi zənginləşdirib. “Yatmış uşaq” silsiləsinə daxil olan rəsmlərdə Bəhruz Kəngərli üzlərindən saflıq, məsumluq yağan uşaqları məharətlə təsvir edib.

Rəssamın məzarı Naxçıvan şəhərində İmamzadə Kompleksinin yaxınlığında yerləşir. Burada onun məzarüstü abidəsi ucaldılmışdır. Abidənin müəllifi Xalq rəssamı Hüseynqulu Əliyevdir.

Ziyadxan Əliyev sonda bildidi ki, hazırda Azərbaycan incəsənət kəhkəşanında ikinci bir Bəhruz Kəngərli işıq saçır. Ana tərəfdən qohumu olan nakam rəssamın sənət ənənəsini layiqincə davam etdirən müasirimiz ona verilmiş adı doğrultmağa çalışır. Deməli, estafet davam edir.

*Elçin ABBASOV, “Xalq qəzeti”*